# Azərbaycan-ABŞ əməkdaşlığının genişləndirilməsi üçün möhkəm zəmin yaradılıb

**Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ikitərəfli münasibətlərin transformasiyasında mühüm mərhələ olmaqla yanaşı, Cənubi Qafqazda gedən daha dərin geosiyasi proseslərin də göstəricisidir. Burada söhbət sadəcə simvolik sənəddən və ya niyyət bəyanatından getmir, xartiya epizodik əməkdaşlıqdan strukturlaşdırılmış və uzunmüddətli tərəfdaşlıq modelinə keçidi rəsmiləşdirir.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu addımın əsas xüsusiyyəti Vaşinqtonun Bakını regional siyasətin obyekti kimi deyil, öz siyasi çəkisi və strateji baxışı olan müstəqil aktor kimi qəbul etməsidir. Bu, münasibətlərin məntiqini köklü şəkildə dəyişir. Azərbaycan tərəfdaşlıq formatına "kiçik iştirakçı" qismində deyil, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, regional sabitlik və postmünaqişə dövrünün bərpası kimi sahələrdə gündəlik formalaşdıra bilən dövlət kimi daxil olur. "Xartiya Cənubi Qafqazın yenidən formatlaşdığı bir mərhələdə ortaya çıxır. Ayrı-ayrı güc mərkəzlərinin dominantlığına əsaslanan köhnə təsir mexanizmləri tədricən effektivliyini itirir. Region çoxvektorlu əməkdaşlıq məkanına çevrilir və burada praqmatik tərəfdaşlıqlar, iqtisadi qarşılıqlı asılılıq və infrastruktur bağlantıları getdikcə daha böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə ABŞ-nin regionda fəallaşması qarşıdurma xarakteri daşımır - bu proses Azərbaycanın xarici əlaqələrinin şaxələndirilməsi strategiyasının tərkib hissəsidir", - deyə o bildirib.

Xartiyanın praktiki məzmununun qarşılıqlı fayda prinsipinə əsaslanan bir neçə istiqaməti əhatə etdiyini deyən deputat vurğulayıb ki, energetika əməkdaşlığın əsas sütunu olaraq qalır, lakin artıq söhbət təkcə ənənəvi resurslardan getmir. Diqqət "yaşıl enerji", texnoloji mübadilə və dayanıqlı inkişafa yönəlir. İqtisadi komponent özəl investisiyaların təşviqini, innovativ layihələrin inkişafını və ticarət əlaqələrinin genişləndirilməsini nəzərdə tutur. Təhlükəsizlik sahəsində isə sərt öhdəliklərdən yayınaraq koordinasiya və təcrübə mübadiləsinə üstünlük verilir ki, bu da etimadın mərhələli şəkildə möhkəmlənməsinə imkan yaradır.

S.Fətəliyeva qeyd edib ki, sənədin imzalanması Azərbaycanın beynəlxalq mövqelərini daha geniş mənada gücləndirir: "Bu addım Bakının Qərb, türk dünyası, ərəb ölkələri və Asiya tərəfdaşları ilə paralel şəkildə balanslaşdırılmış münasibətlər qurmaq qabiliyyətini nümayiş etdirir. Belə yanaşma çoxvektorlu diplomatiyaya sadiqliyi təsdiqləyir və Azərbaycanın müxtəlif geosiyasi məkanlar arasında əlaqələndirici rolunu möhkəmləndirir. Bu prosesin regional nəticələri də diqqətəlayiqdir. Qonşu ölkələr üçün ABŞ ilə əməkdaşlıq baxımından yeni orientirlər formalaşır, ənənəvi oyunçular isə daha mürəkkəb və çoxqütblü təsir konfiqurasiyasına uyğunlaşmaq zərurəti ilə üzləşirlər. Avropa İttifaqı da yeni reallıqla hesablaşmalı olur, bu reallıqda Cənubi Qafqazda yeni siyasi arxitekturanın formalaşmasında əsas xarici tərəfdaş rolunu məhz Vaşinqton oynayır".

Onun sözlərinə görə, nəticədə, Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya təkcə iki ölkənin yaxınlaşmasını deyil, daha dərin strateji dönüşü əks etdirir, yeni bəyanatlar siyasətindən konkret mexanizmlər siyasətinə keçidi təmin edir. Bakı üçün bu, regional proseslərin aktiv iştirakçısı statusunun möhkəmlənməsi deməkdir, Vaşinqton üçün isə strateji əhəmiyyətli məkanda etibarlı tərəfdaşın əldə olunmasıdır. Ən başlıcası isə odur ki, sənəd praqmatizmə, qarşılıqlı hörmətə və uzunmüddətli maraqların düzgün anlaşılmasına əsaslanan əməkdaşlıq üçün möhkəm zəmin yaradır. Məhz bu prinsiplər bu gün yeni beynəlxalq reallığın əsas müəyyənedicilərinə çevrilir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 12 fevral (№27).- S.8.